**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

| | |
|---|---|
| Haraya: | SSOF |
| Surəti: | |
| Göndərilmə nömrəsi: | S/42-55-64/04/17 |
| Tarix: | 06.03.17 |
| Sənəd necə göndərilir: | **Elektron poçt** |
| Səhifələrin sayı: | **1** |
| Əlavə: | 1 |
| Məhdudluğu qrifi: | **Adi** |
| Təciliyi: | **Təcili** |
| Vacibliyi: | **Çox vacib** |

XiN-in S/42-31923/04/14 nömrəli, 13 oktyabr 2014-cü il tarixli məktubuna istinadən, "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətə cəlb olunmuş şirkətlər, təşkilatlar və şəxslərin siyahısı"nın (Siyahı) akkreditə olunduğunuz ölkələr üzrə yoxlanılması üçün diqqətinizə təqdim edirik. Bu xüsusda, məlumatların aşağıdakı suallar üzrə yoxlanılmasını xahiş edirik:

- Siyahıda müvafiq ölkə üzrə əks olunmuş şirkət hələ də hüquqi şəxs olaraq mövcuddurmu?;
- Şirkətin hüquqi şəxs olaraq rəsmi qeydiyyat ünvanı və VÖEN (və ya digər müvafiq qeydiyyat nömrəsi) nədir?;
- Şirkətin Azərbaycan Respublikasının işğal altında olan ərazilərində qanunsuz fəaliyyətinin davam etməsi və ya dayandırılması ilə bağlı yeni məlumatlar mövcuddurmu?;
- Şirkətin Azərbaycan Respublikasının işğal altında olan ərazilərində qanunsuz fəaliyyətə cəlb olunması ilə bağlı akkreditə olunduğunuz ölkənin müvafiq qurumlarına məlumat verilmişdirmi?

Akkreditə olunduğunuz ölkələrin qeydiyyatında olan və hazırkı Siyahıda əks olunmamış digər hüquqi şəxslərin Azərbaycan Respublikasının işğal altında olan ərazilərində hər hansı növ qeyri-qanuni fəaliyyətə cəlb olunduğu təsbit edilərsə, müvafiq məlumatların Siyahıda göstərilən qaydada Mərkəzə təqdim edilməsini xahiş edirik.

**Hörmətlə,**

**Nazir müavini** **Araz Əzimov**

**İcraçı: MRTİ**

## AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİNDƏ QEYRİ-QANUNİ İQTİSADİ VƏ DİGƏR FƏALİYYƏTLƏRLƏ MƏŞĞUL OLAN HÜQUQİ ŞƏXSLƏRİN SİYAHISI

| № | Fiziki və hüquqi şəxslərin adı | Qeydiyyatda olduğu ölkə | Yerli qeydiyyat nömrəsi | Hüquqi şəxsin qeydiyyat ünvanı | Hüquqi şəxsin rəsmi internet ünvanı | Fəaliyyətin növü | Fəaliyyətin təsviri |
|---|---|---|---|---|---|---|---|
| 1 | Rodino Haskovo | Bolqarıstan | | | www.rodinahaskovo.com | İşğal edilmiş ərazilərdə qanunsuz istehsal olunan əmtəələrin xarici bazarlara ixracı və xarici ölkələrin mal və xidmətlərinin bu ərazilərə idxalı | Cəmiyyət kənd təsərrüfatı və ərzaq sənayesi müəssisələri üçün avadanlıqlar istehsal edir, ölkə üzrə ən böyük zavodlardan birinə sahibdir. Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə qeyri-qanuni fəaliyyət göstərən "Artsakh Brandy" ilə əməkdaşlığına dair Səfirliyin sorğusuna cəmiyyət bu ərazilərdə fəaliyyət göstərən hər hansı bir müəssisə ilə əlaqəsinin olmadığını bildirmişdir. Müqavilələrin "Rodino Haskovo" şirkəti ilə Ermənistandakı ticarət agenti arasında bağlanıldığı bildirilmiş, həmçinin istehsal olunan malların Ermənistan vasitəsilə işğal edilmiş ərazilərə ötürüldüyü istisna edilməmişdir. |